**Azərbaycan Respublikasının**
**Maliyyə Nazirliyinin**
*06 dekabr 2011-ci il tarixli Q-01 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

# İcbari Sığorta Bürosunun iştirakçısı olan sığortaçıların şərti öhdəliklər ehtiyatının formalaşdırılması

# QAYDASI

1.1. Bu Qayda «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.5-ci maddəsinin icrası məqsədilə hazırlanmışdır və kompensasiya ödənişlərinin verilməsi üçün İcbari Sığorta Bürosunun kompensasiya ödənişləri ehtiyatı kifayət etmədikdə, belə ödənişlər üzrə öhdəliklərin yerinə yetirilməsi məqsədilə onun istifadə etdiyi öz vəsaitinin iştirakçı sığortaçılar tərəfindən ödənilən əlavə haqlar hesabına kompensasiya edilməsindən ötrü İcbari Sığorta Bürosuna əlavə haqların ödənilməsinə təminat yaratmaq məqsədi ilə iştirakçı sığortaçıların şərti öhdəliklər ehtiyatının məbləğinin hesablanması, həmin ehtiyatın formalaşdırılması və uçotunun aparılmasını, habelə bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş digər məsələləri tənzimləyir.

1.2. Bu Qaydanın məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. hesabat tarixi – sığortaçının müvafiq hesabatının tərtib edildiyi tarix;

1.2.2. iştirakçı sığortaçı – İcbari Sığorta Bürosunun iştirakçı sığortaçıların reyestrinə daxil edilmiş sığortaçı.

## 2. Şərti öhdəliklər ehtiyatının məbləğinin hesablanması, onların formalaşdırılması və uçotunun aparılması

2.1. İştirakçı sığortaçılar tərəfindən hər rüb aparmağa icazəsi olduğu hər bir icbari sığorta növü üzrə hesabat rübündən sonrakı ayın 1-i tarixinə son dörd rüb ərzində hesablanmış sığorta (təkrarsığorta) haqlarının (xitam verilmiş sığorta (təkrarsığorta) müqavilələri üzrə qaytarılmış sığorta haqları və Azərbaycan Respublikasının rezidenti olan sığortaçılara (təkrarsığortaçılara) ötürülmüş müqavilələr üzrə təkrarsığota haqları çıxılmaqla) 3%-i məbləğində şərti öhdəliklər ehtiyatı hesablanmaqla formalaşdırılır.

2.2. Şərti öhdəliklər ehtiyatının hesablanmış məbləği iştirakçı sığortaçının hesabat rübündən sonrakı ayın 1-i tarixinə rüblük maliyyə hesabatlarında əlavə sığorta ehtiyatları kimi nəzərə alınmalıdır.